Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük "Vətən Müharibəsi"ndə qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması**

# Dünya üçün təhlükəli nümunə - Müharibə cinayətlərinə görə Ermənistan hələ cəzalandırılmayıb...

**Dünyada hazırkı mürəkkəb geosiyasi vəziyyət onu göstərir ki, beynəlxalq sülhün və bütövlükdə bəşəriyyətin təhlükəsizliyinin siyasi-hüquqi müdafiəsi hələ də öz kamil nöqtəsinə çatmayıb. Zaman keçdikcə beynəlxalq birlik dövlətlərin bəzi əməllərini cinayət, ayrı-ayrı ölkənin mənafeyini pozan, dünya qanunlarına və asayişinə təhlükə yaradan əməllər kimi qiymətləndirib.**




Beynəlxalq norma və prinsiplərin imperativ kimi tanınması onlara riayət etməyi məcbur edir. Sülh əleyhinə cinayətlərin tənzimlənməsi ilə bağlı mövcud norma və prinsiplər hüquqi və texniki boşluqlardan və qeyri-müəyyənliklərdən tam xali deyil. Bu səbəbdəndir ki, Ermənistan Azərbaycana qarşı dəhşətli müharibə cinayəyitinə yol versə də, hələ layiqli cəzasını almayıb.

**Ermənistanın mina terroru hələ də davam edir**

Beynəlxalq sülhün sabit vəziyyəti ümumbəşəri sərvət olduğundan, bu fenomenin həm beynəlxalq aləmdə, həm də milli qanunvericilik çərçivəsində qorunmasının siyasi-hüquqi mexanizminin spesifikliyi ön plana çıxır. Amma bu zaman beynəlxalq sülhə təhlükə yaradan əməllərin cinayət məsuliyyətinə cəlb edilməsi də zəruridir. İnsanlıq əleyhinə cinayətlər arasında, şübhəsiz ki, sülh və bəşəriyyətin təhlükəsizliyinə qarşı olanlar ən təhlükəlisidir. Müasir dünyada belə cinayətlərin, o cümlədən beynəlxalq xarakterli cinayətlərin sayı artıb.

Terror aktlarının, qətllərin, əsarətin, əhalinin məhv edilməsinin və bir çox başqa faktların getdikcə artması ilə mövcud beynəlxalq vəziyyət bütün sivil dünya ictimaiyyətini bu qəbildən olan cinayətlərə qarşı ardıcıl mübarizə aparmağa vadar edir. Ona görə də dövlətlər cinayətkarlıqla mübarizə üçün öz fəaliyyətlərini əlaqələndirməyə məcburdurlar. Belə əməkdaşlıq çərçivəsində beynəlxalq cinayətkarlıqla mübarizə və cinayət sferasında hüquqi yardımın göstərilməsi məqsədi ilə müqavilə və sazişlər bağlanır, ictimai münasibətlərin bu sahəsində birgə cinayətlərin qarşısının alınması tədbirləri həyata keçirilir. BMT beynəlxalq cinayətlə bağlı qlobal problemlərin həlli üçün dövlətlər arasında tədbirlərin əlaqələndirilməsini və əməkdaşlığın zəruriliyini qeyd edərək, cinayətlə mübarizənin ümumi və ortaq məsuliyyət olduğunu vurğulayıb. Amma hələ də bu cinayəti törədənlərə qarşı bəzi hallarda müvafiq addımlar atılmır. Məsələn, Ermənistan indiyə kimi Azərbaycana qarşı müharibə cinayətlərini davam etdirir. Faktdır ki, işğaldan azad olunmuş torpaqlarımızda Ermənistan tərəfindən basdırılmış minalar hərbi qulluqçularımızın və mülki şəxslərin həyatına son qoymaqda davam edir. Azərbaycan tərəfinin işğaldan azad olunmuş ərazilərimizdə basdırılmış minaların düzgün xəritələrini dəfələrlə tələb etməsinə baxmayaraq, Ermənistanın xəritələri təhvil verməkdən boyun qaçırması bu ölkənin günahsız insanların qətlində maraqlı olduğunu, beynəlxalq humanitar hüquq normalarına etinasız münasibətini bir daha göstərir. Digər tərəfdən, azad edilmiş ərazilərimizdə Ermənistan tərəfindən basdırılmış minalar mülki şəxslərin və hərbi qulluqçularımızın təhlükəsizliyinə, regionda sülh quruculuğu prosesinə, həyata keçirilən infrastruktur layihələrinin icrasına, keçmiş məcburi köçkünlərin öz doğma torpaqlarına qayıdışı prosesinə ciddi təhdid yaradır. Bundan başqa, Birinci Qarabağ müharibəsi dövründə itkin düşmüş 4 000-ə yaxın azərbaycanlının taleyi bugünədək naməlum qalır. Bu cür faktlar Ermənistanın Azərbaycana qarşı törətdiyi müharibə cinayətlərini, beynəlxalq hüququn norma və prinsiplərinin birbaşa pozulması hallarını sübut edir. Belə qəbildən olan digər müharibə cinayətləri barədə də xeyli faktlar sadalamaq mümkündür.

**Azərbaycana qarşı müharibə cinayətlərinin elementləri ən qəddar epizodlara malikdir**

Qeyd edək ki, işğal dönəmində Ermənistan tərəfindən Azərbaycana qarşı törədilən müharibə cinayətlərinin elementləri ən qəddar epizodlara malikdir. Onlara hüquqi qiymət verilməsinin zəruriliyini ölkəmiz daim gündəmə gətirir. Bunun üçün prosedurlar var. Həmin prosedurlar hələ XIX əsrin sonu və XX əsrin əvvəllərində Haaqa Konvensiyalarının bağlanması ilə, daha sonra isə 20-ci əsrin sonunda başlayıb. Belə ki, sülhə, insanlığa qarşı cinayətləri və müharibə cinayətlərini özündə əks etdirən beynəlxalq hüquqa aid normalar formalaşdırılıb. Sadəcə, onların işləkliyi təmin olunmalıdır.

Mövcud mürəkkəb geosiyasi vəziyyət onu göstərir ki, beynəlxalq sülh və bəşəriyyətin təhlükəsizliyi daha səmərəli müdafiə tələb edir. Sülh əleyhinə cinayətlərə qarşı mübarizə və onların qarşısının alınması üsullarının təkmilləşdirilməsi sistemli və metodik olmalıdır. Çünki sülh və təhlükəsizlik əleyhinə olan cinayətlər böyük ictimai təhlükə ilə xarakterizə olunur. Bu cinayət qruplarının xüsusiyyəti onlara qarşı ikitərəfli və çoxtərəfli beynəlxalq müqavilələr əsasında aparılan mübarizədir. Bu sazişlərin iştirakçısı olan dövlətlər öz ölkələrinin milli cinayət qanunvericiliyində bu cinayət əməllərinə görə cinayət-hüquqi qadağalar və cəzalar müəyyən etmək öhdəliyi götürürlər. Qeyd etmək lazımdır ki, universal yurisdiksiya cinayət əməlinin harada baş verməsindən və əməli törədən şəxsin vətəndaşlığından asılı olmayaraq həyata keçirilir. Beləliklə, bu yurisdiksiya üçün əsas şərt ərazi və ya vətəndaşlıq yox, törədilmiş əməlin xarakteridir. Azərbaycan bu prinsipi rəhbər tutur. Hər halda, Qarabağdakı erməni separatçıların liderlərinin həbs olunaraq Bakıya gətirilməsi də bunun təzahürüdür. Xatırladaq ki, Qarabağ separatçılarının lideri olmuş Bako Saakyan, Arkadi Qukasyan, Araik Arutyunyan, eləcə də Ruben Vardanyan, David İşxanyan, Davit Babayan, Lyova Mnatsakanyan və digərləri tutularaq barələrində həbs qətimkan tədbiri seçilib. Adları çəkilən bu şəxslər Azərbaycan dövlətinə qarşı terrordan tutmuş qanunsuz silahlı dəstələr yaratmaq, təxribatlar törətmək, azərbaycanlılara işgəncə vermək, dinc sakinləri soyqırımına məruz qoymaq, Qarabağda etnik təmizləmə və başqa cinayət əməlləri törədiblər. Azərbaycana qarşı dövlət cinayəti işləyən Robert Köçəryan, Serj Sarkisyan, Seyran Ohanyan və digərləri də layiqli cəzalarını alacaqlar. Sülhə, bəşəriyyətin təhlükəsizliyinə qarşı qəsdlər və müharibə cinayətləri, o cümlədən soyqırımı üçün iddia müddəti yoxdur. Bu cinayəti törədənlər mütləq cəzalarına çatacaqlar. Azərbaycan kənardan yardım olmadan da bu istiqamətdə məqsədlərinə çatacaq.

***Samirə SƏFƏROVA***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**